## MEDİAMIZDA ŞƏHİD MÖVZUSU

**Kənan Novruzov**

"Şəhid" sözü dünyanın bütün dillərinin leksikonunda hər millətin özünə məxsus ana dilində müxtəlif cür səslənsə də, hamısında bir məna kəsb edir: müqəddəslik mənası! "Şəhid sözü ərəbcə bir kəlmədir. Mənası öz gözləri ilə görən, şahidlik edən deməkdir. Bu söz Quranda 50 yerdə keçir. Şəhid sözünün Allah yolunda canından keçən mənası da var ki, bu Hz. Peyğəmbər tərəfindən işlədilmişdir: "Mən onların (şəhidlərin) Allah yolunda canlarından keçdiklərinə

şahid və şəfaətçiyəm". "Termin olaraq isə, Allah yolunda canından keçən müsəlmana şəhid deyilir. Şəhid sözünün kəlmə mənası ilə termin mənası haqqında müxtəlif izahlar mövcuddur"1.

Amma döyüşdə həlak olmuş əsgər o zaman şəhid adını alır ki: birincisi, bu müharibə haqq, ədalət müharibəsidir: ikincisi, əsgər məhz bu haqqı, ədaləti bərpa etmək, qorumaq amacı ilə həlak olur. Deməli, başqasının torpağını zəbt etmiş dövlətin ordusunda qırılan "əsgərlər" şəhid adına layiq görülə bilməzlər. Şəhid adı yalnız öz torpağı uğrunda həlak olan əsgərə verilir. Dünyanı odlara qalamış, bütün Avropaya yiyələnmək iddiası ilə II dünya müharibəsini törətmiş Hitler Almaniyasının bu ambisiyanı gerçəkləşdirmək iddiasında olan milyonlarla əsgəri sadəcə qırıldı, məhv oldu, yəni müqəddəs "şəhid" epiteti onlara verilə bilməzdi.

Beləcə, xarici işğala, xarici müdaxiləyə məruz qalan xalqın bu tip azğın dövlətlərə qarşı müharibəsi "ədalətli müharibə" anlayışı ilə tarixə düşdü. Xatırladaq ki, "Modern ədalət nəzəriyyəsi üzərində iki məktəb mövcuddur: ənənəvi və revizyonist məktəblər. Maykl Valzerin seminal "Ədalətsiz və ədalətli müharibə" kitabının təmsil etdiyi ənənəvi məktəb milli özünümüdafiənin qeyri-dini haqlılığını, döyüşçülərin bərabərliyini, eləcə də mülki toxunulmazlığı müdafiə edir. Ceff Makmahanın rəhbərlik etdiyi revizyonist düşərgə isə ənənəvi ədalətli müharibə mövzusunu sorğu-sual edərək müharibə etikasının fəlsəfi müzakirəsini inqilabiləşdirdi. Müharibənin ədalətli səbəbi kimi milli özünümüdafiənin haqlılığını və dövlətlərin ədalətli mövqeyini təftiş etməyə çalışan C. Makmahan "mülki immunitet" anlayışını da problematikləşdirir. Tarixən ədalətli müharibə nəzəriyyəçiləri konfliktin iki mərhələsi arasında fərqliləşmə aparırdılar: "jus ad bellum" («dövlətlərin müharibəyə müraciət etməsinə icazə verən legitim səbəblər») və "jus in bello" («müharibə edən tərəflərin davranışları üzərində qadağalar»). Lakin son 20 ildə həm reviziyonistlər, həm də ənənəçilər konfliktin bitməsindən sonra cəzalandırmanın müəyyən edilməsində rəhbər etik prinsiplər olaraq ədalətli müharibə nəzəriyyəsinin üçüncü qolu kimi "jus post bellum"-u əlavə etdilər. Çünki sülh müqavilələrinin hazırlanması və dövlətlərin yenidən qurulması, cəzalandırma və intiqam məsələləri, məğlub tərəfdən nəyin tələb edilə bilməsi üzərində cavabı çətin suallar ortaya çıxır". 2

Ermənistan "dövləti" tarixən saxta yollarla formalaşmışdı. Bu "dövləti" formalaşdıran güc dövlətləri onu özünə forpost kimi bir toplum elədi. Bu "dövlətin" başında oturdulan hər kəs xarici havadarlarının yağlı vədlərinə uydular və zaman-zaman qonşu dövlətlərlə müharibələrə sövq edildilər. Sövq olundular və öz xalqını "Böyük Ermənistan" xülyası ilə şirnikləndirib qırğınlara düçar etdilər. Saxta tarixlərində həmin dövlətin min illər əvvəl yarandığı bu marionet ölkənin bəs niyə heç vaxt uzağı üç-dörd milyondan artıq əhalisi olmayıb? Bu sualı da onlara verən yoxdur. Belə bir sual ona görə verilmir ki, bu marionetkanın, bu forpostun heç iki yüz illik tarixi də yoxdur. Amma bu qısa tarixdə başqa torpaqlara iddialar içində hər dəfə müəyyən qədər dirçəlməkdə olan milləti yenidən qırğına veriblər. Hər dəfə də işğalçılıq niyyətinə görə törətdikləri müharibələrdə qırılan əsgərlərə "şəhid" adı vermək mümkün olmayıb.





Bu marionet dövlətin son bir əsrdə ən ciddi torpaq iddiaları Azərbaycana yönəlik olub. Və sözügedən iddia 1980-ci illərin əvvəllərində SSRİ-ni, öz Rusiyasını belə ağlar günə qoyan Mixail Qarbaçovun təhriki ilə özünün pik həddinə çatdı. O zaman bütün sovet respublikaları, o cümlədən Azərbaycan müstəqillik uğrunda ayağa qalxmışdı. Lakin Azərbycan müstəqillik əldə etdikdən dərhal sonra hakimiyyət çəkişməsinin qurbanı oldu və ölkəmizin vəziyyəti faciəvi bir şəkil aldı. Bu faciə necə və nəyə görə yarandı? Bu suala cavab tapmaq üçün uzağa getmək lazım deyil: Prezident İlham Əliyev hələ keçən il Kəlbəcər və Laçına səfəri zamanı orada xalqa müraciətlə söylədiyi nitqini xatırlamaq bəs edir: "Biz indi bu yoldan istifadə edirik. Ermənilər üçüncü yolu da çəkmək istəyirdilər - Cəbrayıla gedən yol. Bu haqda müharibə zamanı dəfələrlə öz fikirlərimi bildirmişdim və beləliklə, Ermənistanı Şərqi Zəngəzurla və Qarabağla üç yolla birləşdirmək istəyirdilər. Bunun yeganə məqsədi qanunsuz məskunlaşma siyasəti aparmaqdı və bu da hərbi cinayət sayılır. Əfsuslar olsun ki, bu məsələ ilə məşğul olan beynəlxalq qurumlar, ilk növbədə, ATƏT-in Minsk Qrupu buna laqeyd yanaşmışdır, Ermənistana heç bir irad tutmamışdır, onları bu işlərdən çəkindirməyə cəhd etməmişdir, sadəcə olaraq, müşahidəçi kimi bunu müşahidə edirdi. Onlar, hətta bu yolda da olublar, onu da görüblər və Cəbrayıl rayonunda nəzərdə tutulmuş yolun inşasına da etiraz bildirməmişdilər. O vaxt bu yol çəkiləndə biz etirazımızı bildirmişdik. Biz səsimizi qaldırmışdıq, biz demişdik ki, buna yol vermək olmaz, Azərbaycan ərazisində qanunsuz işlər aparıla bilməz. Ancaq bizi eşidən yox idi. Amma bu gün mən gəlmişəm, həmin yolun üstündə durmuşam və biz bu yolda bundan sonra əbədi qalacağıq, bu bölgədə əbədi yaşayacağıq". 3 Müstəqilliyin ilk illərində Azərbaycanın ağır çəkişmələr şəraitindən sui-istifadə edən Ermənistan Qarabağı işğal etdi. Öz torpaqlarımızı qorumaq amalı ilə vuruşan yüzlərlə könüllülərimiz həlak oldu. Ermənistanın havadarları qarşısında məğlubiyyət labüd idi. Və "Birinci Qarabağ müharibəsi" adlandırılan o döyüşlərdə həlak olan hər döyüşçümüz şəhidlik zirvəsinə yüksəldi. Ona görə ki, bizim döyüşçülərimiz haqq, ədalət uğrunda canlarını verdilər. Yalnız bu kontekstdə həlak olan əsgər şəhidlik zirvəsinə yüksəlir və bu ilahi məqam Qurani-Kərimdə də əksini tapmışdır.

Otuz il sürən erməni işğalı bir mövzu kimi nə qədər başımızı qatsa da, "şəhid" sözü, şəhidlik o günlərdə mediamızın müqəddəs mövzusu oldu. Gələcək mətbuat tarixçilərimiz, yəqin ki, mətbuatda şəhid mövzusunun tədqiqinə o illərdən başlayacaqlar. Şəhid mövzusu xüsusi bir ağrı ilə qəlbimizi yandırdı. Təsəllimiz o idi ki, beynəlxalq təşkilatlar, o cümlədən ATƏT-in Minsk Qrupu, BMT və s. ədaləti bərpa etmək üçün hələ "münaqişə" adlanan bu problemi sülh yolu ilə həll edəcəklər. Amma olmadı. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev bu "sülh" qurumlarının saxta vədlərinin axırını əvvəlcədən gördü və ədalətli müharibədən, haqq-ədalət müharibəsindən başqa yolun olmadığı qənaətindən sonra Ermənistanın Tovuz təxribatının ardınca əks-hücum barədə əmr verdi. Ali Baş Komandan bu müharibənin lap ilk günündə xalqa müraciətlə dedi: "Bildiyiniz kimi, bu gün səhər tezdən Ermənistan silahlı qüvvələri Azərbaycana qarşı növbəti hərbi təxribat törətmişdir. Bu təxribat nəticəsində

itkilərimiz var, həm mülki əhali, həm də hərbçilər arasında. Bu, bir daha onu göstərir ki, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti davam edir və bu siyasət Ermənistanın faşist mahiyyətini bütün dünyaya göstərir. Səhər tezdən məlumatı alan kimi, mən Müdafiə naziri, digər aidiyyəti qurumların rəhbərləri ilə əlaqə saxladım, müvafiq göstərişlər verdim və bu göstərişlər əsasında hazırda Azərbaycan Ordusu genişmiqyaslı əks-hücum əməliyyatına başlamışdır". 4

Beləliklə, İkinci Qarabağ savaşı başlandı. Bu müharibə bir xalqın işğal olunmuş torpaqlarını yağı düşmən tapdağından xilas etmək, tarixi ədaləti bərpa etmək məqsədilə başlamışdı və belə müharibənin "ədalətli müharibə" statusu almağa beynəlxalq hüququ var. İkinci Qarabağ müharibəsi öz məzmununa görə "Vətən müharibəsi" kimi müqəddəs bir status aldı. Dünya təcrübəsi göstərir ki, Vətən müharibəsi statusu mütləq ədalətli müharibənin haqlılıq xarakterindən doğur.

Otuz illik doğma torpaq həsrətilə yaşayan Azərbaycan xalqı bu savaşa bütün təbəqələri ilə qoşuldu. Prezidentin, Ali Baş Komandanın arzusu ilə ölkədə bu savaşa qoşulmaq üçün minlərlə könüllü ayağa qalxdı. Müxalif qüvvələrin, müxalif partiyaların 98 faizi ordumuza dəstək olmaq, bu müharibə dövründə iqtidar-müxalifət cəbhələrini birləşdirmək təklifini irəli sürdü. Xalqın bütün nümayəndələri-ayrı-ayrı fərdlərdən tutmuş böyük müəssisələrədək- hər kəs ordumuza dəstək nümayiş etdirdi. Çünki torpaqdan pay olmaz. Çünki Vətən bölünməz. Çünki işğalçı düşmən "Qarabağ Ermənistandır və nöqtə" kimi özündən müştəbeh, arxayın və xalqımızı təhqir edən bir nadan cümləsi ilə Cıdır düzündə rəqs etmişdi. Azərbaycan Prezidentinin güc dövlətlərinin də iştirak etdiyi bir tədbirdə "Qarabağ Azərbaycandır və nida" cümləsi 30 il təhqir olunmuş xalqı birləşməyə çağırdı. Xalq birləşdi və 44 günlük savaş faktı "vətən müharibəsi" kimi haqlı statusla tarixə düşdü. Bu müharibə öz formatına görə, 30 il müddətində düşmənin qurduğu hücum-müdafiə istehkamlarına görə dünyada bənzəri olmayan bir savaş idi. Bu müharibə cəmi 44 gün davam etdi. 44 günün hər günü Prezidentimizin, Ali Baş Komandanımızın qələbə müjdəsi verən bir xəbərlə, xalqa müraciətilə bitirdi. Düşmənin təkcə özünün yox, həm də daha çox havadarlarının vasitəsilə yaranan yüzlərlə istehkam, keçilməz görünən cəbhə xətti 44 gün müddətində necə tarmar oldu? Bu sualın aydın cavabı var: Ali Baş Komandan, ordu və ümumxalq birgəliyi! Bu birgəliyin yaradıcısı öz xalqına sevgi, məhəbbət dolu bir hisslə fəaliyyət göstərən prezident İlham Əliyev oldu. Döyüş cəbhəsində vuruşan əsgərimizin vətənə sədaqəti, Ali Baş Komandana inamı oldu. Və bir də bütöv bir xalqın yağı düşmənə qarşı vuruşan əsgərlərimizə sevgisi!

Bu müharibədə ordumuzun hər əsgəri "Vətən" deyib canını verməyə hazır oldu. Vətən müharibəsi zamanı 3 minə yaxın əsgərimiz şəhidlik zirvəsinə ucaldı Milli mediamız müharibə günlərində ordumuzun yanında olduğu kimi, əsgərlərimizin qəhrəmanlığını həm də gələcək tarix üçün mətbuat səhifələrinə yazdı. "Şəhid" sözü dilimizin leksikonunda ən müqəddəs anlayış oldu. Mediamız Ali Baş Komandanın "şəhid" sözünü ifadə edərkən keçirdiyi duyğuları tarixə yazdı. Mediamız şəhid analarını, şəhid doğmalarını, şəhid övladlarını birbir xalqa təqdim etməkdədir. Azərbaycan televiziyasının "Xəbərlər" proqramı,





digər proqram formatları şəhid anasının qürurunu uca tutan verilişlər ərsəyə gətirməkdədir. Bütün müharibə dövründə ordumuzun yanında olan "REAL" televiziyası şəhidlərimiz haqqında saysız-hesabsız sənədli filmlər hazırladı və hazırlamaqdadır. Bu televiziyanın hər gün efirə çıxan "Vətən haqqı" proqramı şəhidlərimizin portretini ən yadda qalan peşəkarlıqla bizə təqdim edir. Bütün telekanallarımız bu müqəddəs mövzunu daim diqqətdə saxlamaqdadır.

Ənənəvi mətbuatımızın şəhid mövzusuna diqqəti xüsusi qeyd olunmalıdır. Müharibənin gedişində və ondan sonra "525-ci qəzet" özünün xüsusi qoşa səhifəsi ilə şəhid tarixi yazmaqdadır. Bizcə, bu qəzetin jurnalist Şahanə Müşfiqin hazırladığı həmin qoşa səhifələri nəinki bu günə, bəlkə, daha çox gələcək yüzilliklərə ünvanlanır.

"Şərq" qəzetinin müxtəlif janrlarda təqdim etdiyi şəhid mövzusu bu qəzetin kollektivinin Vətən sevgisinə, şəhid ruhuna ehtiram hissinə bağlıdır. Vətənsevər bir redaksiya kollektivimizin nəşr etdiyi "Xalq Qazeti" vətən müharibəsinin gələcək tədqiqatçılarına samballı bir arxiv sənədidir. Medianın ən müasir formatları olan bir sıra xəbər portalları, saytlar da şəhid mövzusunu daim diqqətdə saxlayırlar. APA İnformasiya Agentliyi, "Qafqaz. info", "Modern. az", "İqtidar. az" kimi saytlardakı şəhid mövzusu ciddi peşəkarlıq səviyyəsindədir.

Biz mediamızda şəhidlərimizin, şəhid analarımızın, şəhid övladlarımızın, şəhid doğmalarının real obrazlarını görməkdəyik. Azərbaycan radiosu müqəddəs şəhidlərimizi xalqa tanıtmaq üçün xüsusi proqram formatları ilə bərabər hər gün onların bir qisminin adlarını, doğulduqları yeri, ili barədə qısa informasiya təqdim edir. Yüzlərlə şəhidimiz içərisində 19, 20, 21, 22... yaşlı gənclərimiz var. Onların doğum tarixi, gəncliyi adamda qürur hissi doğursa da, həyatdan bu qədər tez getmələri eyni zamanda hər kəsin ürək ağrısına çevrilir. Bu anda Prezident İlham Əliyevin bütün çıxışlarında qələbəmizi təmin edən əsas qüvvənin gənclərdən ibarət olduğunu qürurla təkrarlaması və eyni zamanda həm də ağır təəssüf hissi keçirməsi yada düşür.

Bu gənc şəhidlərin anaları biz efirlərimizdə, mətbuatımızda çox görürük. Onlar qəhrəmanlıq nümunələrini göstərən övladlarına çox yaraşan sadə insanlardırlar. Şəhid analarının öz övladları haqqında kövrək və səmimi xatirələri ürəyimizi nə qədər ağrıtsa da, bizdə gənclərimizə, onların vətənpərvərliyinə inamı birəbeş artırır.

Şəhid analarının yanar qəlbindən doğan o sözlər, övladı ilə bağlı ağır xatirələri o qədər səmimi olur ki, onları dinləyən hər kəs Vətən qeyrəti ilə həlak olmuş həmin oğulları birbaşa özününkü hesab edir.

Şəhid övladlarının hər birinin gözündə bir ağır ata xatirəsi var. Amma bu ağırlıq içində onların kiçikli-böyüklü hər birinin qurur duyğusu da yer alır, bir sıra hallarda vətən bayrağına bürünmüş bu övladlar düşmənə qarşı baş verəbiləcək gələcək mübarizəmizin ön sıralarında hazır olduqlarını dilə gətirirlər

Hər bir şəhidin ailəsi öz övladının xatirəsini əks etdirən lövhələri otağının bir guşəsinə düzür. Qəribədir, bu lövhələrdə o şəhidlərin gülər üzləri bizim hər birimizin qəlbinə hopur və bu anda kövrək göz yaşlarını dayandırıb onlara

qürur hissilə baxırıq. Bütün hüznə, kədərə baxmayaraq, onlar torpaqlarımızın azad edilməsi sevinci ilə Prezident, Ali Baş Komandan İlham Əliyevə dəfələrlə təbrik məktubu yazdı. Şəhid anası Sevinc İslamovanın məktubunda deyilir: "Bu gün Azərbaycanda hər kəsin qəlbinə bu cümlələr hakim kəsilib: 44 günlük haqq savaşı ilə ədaləti yerinə qoyan, "Qarabağ Azərbaycandır!" nidası ilə tarix yaradan Müzəffər Ali Baş Komandan, Prezident cənab İlham Əliyev, müzəffər Azərbaycan Ordusu, şəhidlərin al qanı, qazilərin qüdrəti ilə Azərbaycan bayrağını Şuşa qalasında dalğalandırdı! 30 ilin intizarına 44 gündə son qoyuldu! Qisas qiyamətə qalmadı!... Bu 40 gündə bizi tək qoymayan, dərdimizə şərik çıxan hər kəsə təşəkkür edirəm. Hər gün qayğımızla maraqlanan, bizi ən doğma adamları kimi qəbul edən təsəlli, ümid yerimiz olan insanlara və Sizə minnətdarlıq edirəm". 5. Bu müqəddəs məktublar mediamızda da yer almaqdadır.

Şəhid anaları, şəhidlərin həyat yoldaşları, övladları həm də bir Tanrı sevgisilə zəngin zümrədir. Onların televiziya çəkilişlərindəki sinxronları nə qədər səlis, nə qədər məntiqli, nə qədər dözümlüdür! Bu səlislik, bu məntiq, bu dözümlülük ilahi bir vergidir. Əks halda o ağır dərdin altında səlis və məntiqli danışmaq, bu qədər dözümlülük mümkün olmazdı...

"Şəhid" sözü müqəddəs olduğu qədər "Şəhid ailəsi" ifadəsi də o qədər məsum və müqəddəsdir. Şəhid ailəsinə dövlət qayğısı özü də müqəddəsliyə xidmət sayılır. Şəhid ailələrinə dövlət qayğısı həmişə və birbaşa Prezident İlham Əliyevin nəzarəti altında olur. Bu ailələrə indiyədək mənzil təqdimatının hamısında Prezident şəxsən özü iştirak etmişdir. Avqustun 26-da yenə də çoxsaylı mənzillərin şəhid ailələrinə və qəhrəman qazilərimizə təqdim olunması mərasimində Prezident İlham Əliyev həmin adamların qarşısında tutarlı bir çıxış etdi. Onun bu çıxışında Ermənistanın təcavüzkar dövlət kimi tarixdən bu günə olan xarakteri, bizim xalqa düşmənçilik siyasəti, zaman-zaman əsassız torpaq iddiaları, dövlət səviyyəsində terrorçu xisləti və Azərbaycanın bütün bunlara görə düşməni cəzalandırması kimi məqamları tutarlı faktlarla dilə gətirdi: "Müharibə dövründə Azərbaycan hərbçiləri həm peşəkarlıq, həm rəşadət, cəsarət, qəhrəmanlıq, eyni zamanda, fədakarlıq göstərmişlər, sözün əsl mənasında, ölümə gedirdilər. Şəhidlərimizin əziz xatirəsi hər birimiz üçün müqəddəsdir. Biz əməliyyatları planlaşdıranda, ilk növbədə, mümkün olan itkilər haqqında düşünürdük və müqayisə apardıqda Azərbaycan məhz buna görə az itki verib. Hər bir şəhidin həyatı təkrarolunmazdır, hər bir şəhidin həlak olması onun yaxınları, qohumları üçün faciədir, böyük bir dərddir"6. Prezidentimiz Ermənistanın gizlətməsinə rəğmən, 8 minə yaxın əsgərinin məhv edilməsi, baş verənlərin günahkarının isə yalnız özləri olmasının da məntiqi dəlillərini göstərdi.

Və ən əsası Prezident Azərbaycan xalqının sınmış qürurunu özünə qaytaran, torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin heç vaxt unudulmayacağını qeyd etdi.

Dövlət başçısı həmin çıxışında həm də hökumətin şəhid və qazi ailələrinə diqqətin prioritet məsələ olduğunu diqqətə çatdırdı: "Bu günə qədər dövlət siyasəti olaraq şəhid ailələri, müharibə əlilləri üçün çox böyük işlər görülmüşdür. Onu demək kifayətdir ki, bu kateqoriyadan olan 10 minə yaxın insan dövlət tərəfindən mənzillərlə, fərdi evlərlə təmin edilmişdir. Təkcə keçən il 1572 mənzil verilmişdir, bu il 3 minə yaxın mənzil veriləcəkdir və beləliklə, növbədə duran vətəndaşların problemi öz həllini tapacaq. Eyni zamanda, bu gün 50 avtomobil təqdim ediləcək. Bu günə qədər verilən maşınların sayı 7 mini ötüb, daha doğrusu, 7200-dür. Bu gün açılışına toplaşdığımız yaşayış kompleksində bu kateqoriyadan olan mindən çox vətəndaş yaşayacaq. Burada bütün şərait yaradılıb, gözəl yaşayış kompleksidir, əsas yollara da yaxındır. Burada 1500 nəfərlik məktəb, - harada ki, biz indi görüşürük, - uşaq bağçası, işıqlı, yaraşıqlı, rahat mənzillər inşa edilib və bu, bir daha dövlət tərəfindən aparılan siyasəti göstərir". 7

Mediamız, Prezidentimizin hər zaman olduğu kimi, bu andakı nitqini də bütün təhlilləri ilə yenidən xalqa çatdırdı. "REAL" TV-də "Mirşahinin vaxtı", "Azərbaycan" TV-də Rövşən Məmmədovun "Həftə"proqramının təhlilləri ilə dövlət başçısının Vətən müharibəsindəki zəfərimizin təminatçısı olmuş şəhidlərimizə və qazilərimizə qayğısının hərtərəfli və daimi olacağı vədini xüsusi publisistik təhlillərlə tamaşaçıya çatdırdı. Ciddi planda nəşr olunan ənənəvi mediamız həmişə olduğu kimi, Prezidentin, Ali Baş Komandanın bu mövzuda nitqlərini də bütövlükdə dərc edir- həm də ayrı - ayrı fikirləri təhlillərlə oxucuya çatdırır.

44 günlük vətən müharibəsi Azərbaycanın çoxəsrlilik tarixində misli görünməmiş bir zəfər faktı olduğu kimi, bu zəfəri xalqımıza qazandıran şəhidlərimizin də qəhrəmanlıq nümunələri, bəlkə, yüz il keçsə də milli qürur hissi ilə yad ediləcək. Bir az keçəcək, hadisələr durulacaq. Gənc yazıçı və şairlərimiz mətbuatın səhifələrində tarixə düşmüş, vətən müharibəsi haqqında qiymətli nəsr əsərləri, poemalar ortaya qoyacaqlar. "Şəhid" sözü xalqımız üçün əbədi müqəddəsliyini qoruyub saxlayacaq.

Vətən müharibəsinin gedişində olduğu kimi, ciddi mediamız bütün ciddi sistemi ilə bu gün şəhidlərimizin ruhu qarşısında özlərinin vətəndaşlıq, dövlətçilik, azərbaycançılıq, milli maraqlara xidmət fəaliyyətini bir an belə dayanmadan müqəddəs bir borc kimi yerinə yetirməkdədir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. https://www. meneviyyat. az/sehid
2. https://stm. az/ru/publications/meqaleler/modern-muharibe-etikas-ve-sona-catmayan-muharibeler
3. https://president. az/articles/52742
4. https://president. az/articles/40969
5. https://sherg. az/cemiyyet/148510
6. https://president. az/articles/52845
7. https://president. az/articles/52845